RAMİZ DUYĞUN - 80

# HƏRBİ HƏKİM, VƏTƏNPƏRVƏR ŞAİR, LƏYAQƏTLİ BAŞ REDAKTOR



...Qulağıma televiziyadan mənə çoxdan tanış, həm də xüsusi çalarları ilə doğma olan səs dəydi: gur, dolğun, ötkəmli...

-Hanı o dedyiniz məsul katib?

Bu amiranə səs getdikcə yaxınlaşmaqda idi. Nəşriyyat sahəsində, xüsusən komputer biliyinə və dizayn bacarığına hörmət bəslədiyim, qəzetin maketləşməsində təcrübəli mütəxəssis, həm də sex rəisi Cəbrayıl Təhməzov ilə yanaşı o səsin Azərbaycan Televiziyasının "Hünər" verilişindən tamaşaçılara yaxşı tanış olan gülərüz çöhrəsini də görəndə həyəcanımı gizlədə bilmədim. Cəld ayağa qalxdım, nəşriyyatın 5-ci mərtəbəsindəki yığcam, bir neçə qəzetin məsul katibliyini apardığımdan səliqəsiz hala saldığım otağımda hələ yalnız şair kimi şeirlərindən tanıdığım və aparıcı kimi "Hünər" verilişindən səsi qanıma-canıma hopan Ramiz Duyğuna yuxarı başdan yer təklif elədim. Yaxşı ki, naşir dostum tez dilləndi:

-Bu da siz istədiyiniz məsul katib - yazır da, cızır da, yeri gələndə pozur da...

-Bu, sənsənmi, igid? - Bunu da Ramiz müəllim soruşdu.

Susub çiyinlərimi çəkməklə cavab verdim.

**Arayış üçün:** Ötən əsrin sonlarında nəşriyyat sahəsində kompüterləşmə işi vüsət almışdı. Nəşrlərin çoxalması, həm də isti yığımdan imtina edilməsi ilə bağlı qəzetlərin tərtibatında müəyyən problemlər yaranmışdı ki, bu problemləri yalnız kompüter proqramlarını mənimsəməklə həll etmək mümkün idi. Bu sahəyə böyük marağım olduğundan işi tez öyrənmişdim. Bir neçə qəzetə məsul katiblik edərək həm yaxşı qazanır, həm də az da olsa tanınırdım. Hesab edirəm ki, Ramiz müəllimin məni tapması heç də təsadüfi deyildi. "İgid" sözü isə Ramiz müəllimin sevimli ifadəsi olub və indi də belədir.

O vaxt təxmini aylıq gəlirim 3000 rubla yaxın idi. Mənə təklif olunan "Sərhəd" qəzetinin məsul katibi vəzifəsinin aylıq pul təminatı isə 800 rubl ötmürdü. Bununla belə, polkovnik Ramiz Məlikovun özünəməxsus ifadə ilə "Sən Vətənə xidmət etməkdən, müstəqil dövlətimizin ilk sərhədçiləri sırasında olmaqdan qürur duymalısan, igid!" deməsi ani düşünməyə də yer qoymadı. Mənə bir anlıq elə gəldi ki, yenə doğma Zəngilanımızdakı qonaqlı-qaralı evimizdəyəm və hamılıqla diqqətimiz televiziyanın "Hünər" verilişinin aparıcısına, onun odlu-alovlu çıxışlarına yönəlib. Beləliklə, aramızda əlavə şərhə ehtiyacı olmayan razılıq əldə olundu. Sabah yeni redaksiyama baş çəkəcəkdim. Ancaq Ramiz müəllim onu dəhlizin başınacan yola salanda bir anlıq ayaq saxladı və tam ciddi şəkildə xəbərdarlığını da etdi:

-Mənə təkcə texniki işçi olan məsul katib lazım deyil. Məsul katib qəzeti həm formatlaşdırmağı, həm də formalaşdırmağı bacarmalıdır. Mən belə məsul katib istəyirəm.

Tezliklə yeni iş yerimdə çalışmalı oldum, əmrimim verilməsi isə bir aydan çox çəkdi. Bu proses bir il də çəkə bilərdi. Yalnız baş redaktorun hər gün işə müdaxilə etməsi, müəyyən strukturlara təkidli xahişləri əmrimin imzalanmasını sürətləndirdi. Bununla belə qəzetə hazırladığım yazılara görə az miqdarda olsa da qonorarla ayı yola verə bildim. Ramiz müəllimin əməkdaşlara qarşı qayğısını bir neçə ay sonra qəzetin məsul katibi vəzifəsinin ştat cədvəlində mülki vəzifəyə keçirilməsi zamanı daha dərindən hiss etdim. Hansısa bir hərbi qəzetin ştat cədvəlinə istinad edən kadr işçiləri məsul katib vəzifəsinin hərbçi olması ilə razılaşmaq istəmirdilər. Mən onda baş redaktorun nə cür prinsipial, qəti mövqedə dayandığını gördüm. Yuxarı instansiyalar-

la belə kəskin şəkildə, bəzən mətbuatdan anlaşıqlı olmadıqlarını ironiyalı tərzdə deməsi həmişə yaxşı qarşılanmırdı. Bununla belə, cəmi bir həftə sonra əmrimi rəhbər heyət kimi yenidən bərpa etdilər və 2001-ci ilin mart ayınadək (qəzet bağlananadək) bu vəzifədə çalışdım. İlk və növbəti zabit hərbi rütbələrini də burada aldım. Bu müddətdə həftəlik "Sərhəd" qəzetinin oxunaqlı, nəfis tərtibatlı olması üçün əlimizdən gələni etdik. "Sərhəd" qəzeti döyüşkən ziyalı qəzeti idi. Həmkarım və dostum Elşad Qoca bu haqda dövrü mətbuatda geniş bəhs edib. Lakin elə məsələlər var ki, təkrarlamaq azdır, yaddaşlara həkk elətdirmək lazımdır. Fəaliyyət göstərdiyimiz 10 ilə yaxın müddətdə hərbi jurnalist olaraq qadınlı-kişili hər bir əməkdaşımız, sözün tam mənasında oddan-alovdan keçdi. Hərbi jurnalist kimi Azərbaycan mətbuatında yeni səhifələr açdıq. Sərhədçi kimi dövlət sərhədlərimizin mühafizənin gücləndirilməsində əlimizdən gələni əsirgəmədik. Qarabağ müharibəsinin qızğın yerlərində, qaynar nöqtələrində döyüşçü kimi vuruşduq. Başımızın üstündən güllələr, mərmilər yağdırıldı, biz "sərhdəçilər" qorxu hissini heysiyyatımıza sığışdıra bilmədik.

Bir tərəfdən sərhəd rayonlarında qaçaqmalçılıq halları, digər tərəfdən torpaqlarımıza erməni basqınları bizi hər bir anda səfərbər olmağa sövq edirdi. Redaksiyada yalnız kompüter yığıcıları qalırdı. Baş redaktorun səriştəli rəhbərliyi, prinsipial vətəndaşlıq mövqeyi sayəsində ezamiyyət yerlərində bizim üçün jurnalistikadan kənar düşəcək bir mövzu yox idi. "Sərhəd" qəzetinin ezam olunmuş hər hansı müxbiri yeni yaradılan Sərhəd Qoşunlarının, o vaxt tabeçiliyində olduğu Milli Təhlükəsizlik Nazirliyinin, bütövlükdə yeni Azərbaycan dövlətinin səlahiyyətli nümayəndəsi qismində ölkənin təhlükəsizliyi ilə bağlı bütün məsələlərdə fəal iştirak edirdi. Yerli idarəetmə orqanları, təlim-təhsil, tərbiyə ocaqları, hüquq mühafizə strukturları bu döyüşkən mətbu orqanın həm yaxşı, həm də pis mənada mövzu obyektinə düşə bilərdilər. Yazarlardan İlqar Əhmədoğlu, Elşad Qoca, Qardaşxan Əzizxanlı, Lətif Şükürоğlu, İbrahim Rüstəmli, Zərif Cəfərova, Xatirə Tağıyeva, Rəbiyə Zeynalova, fotoqraf Elxan Bağırov, video qrupundan Azər İbadov, Füzuli Zəkizadə Mətbuat Xidmətinin işinin səmərəli alınması üçün qan-tər tökürdülər. "Sərhəd" qəzeti üçün mövzu məhdudiyyəti yox idi, mövzuya yanaşma tərzi var idi ki, bunun da məğzində ilk saydan müəyyənləşdirilmiş müstəqil dövlətçilik, vətənpərvərlik xətti dururdu. O dövrün ictimai-siyasi həyatını, sərhəd quruculuğu sahəsində mübarizliyi, Milli Ordunun döyüşkən ruhunu araşdırma nöqteyi-nəzərindən "Sərhəd" qəzeti ən dolğun, tutarlı, obyektiv materiallarla zəngin bir mənbə ola bilər. Burada Azərbaycan istiqlal mücadiləsində ən qorxmaz, ən cəsur ədəbiyyat nümayəndələri, ədəbi nümunələr də yer almışdır. İlk sərhədçi kadrlarla, ordu sərkərdələri, döyüşçülərlə yanaşı, Ramiz Duyğunun şəxsi dostluq etdiyi sayılıb-seçilən ziyalılardan, qələm sahiblərindən Xəlil Rza, Söhrab Tahir, Bəxtiyar Vahabzadə kimi şairlər, dünya şöhrətli yazıçı Çingiz Abdullayev, bəstəkar Arif Məlikov, müğənni Alim Qasımov və başqaları qəzetin səmimi qonaqları sırasında olmuşlar, təəssüratlarını oxucularla bölüşmüşlər. Onlar müstəqil Azərbaycan Respublikasının ilk mədəniyyət carçıları kimi söz hüdudlarını məhz "Sərhəd"in səhifələrindən aşmışlar.

Odlu-alovlu şair kimi Ramiz müəllimin öz yaradıcılığından ən tutarlı, həm də çox cəsarətli nümunələr məhz bu insanın baş redaktor olduğu qəzetdə dərc olunurdu. Yadımdadır, bir dəfə ağsaqqal dostlarından birinin "bəlkə bir az ehtiyatlı olasan" sözünə Ramiz Duyğunun cavabı belə olmuşdu:

-Elə vaxt, elə məqam var ki, ehtiyat da igidin yaraşığı olmur!

Ramiz Duyğun bütün saf duyğuları ilə, pak niyyətləri ilə bəşəri nümunədir. O, özünü bütün mənalarda, təpədən-dırnağacan azərbaycanlı sayır və bununla qürur duyduğunu deyir. Ramiz müəllimlə azacıq ünsiyyətdə olan, onun ötkəm, dolğun, bütün vücudunu ifadə edən səsini eşidən hər kəs "deyir" ifadəsinin nə qədər zəif səsləndiyinə şahidlik edər. Çünki, söhbət Azərbaycandan, doğma Vətəndən, eldən-obadan, yurddan, torpaqdan və azərbaycançılıqdan, türkçülükdən, turançılıqdan düşəndə Ramiz Duyğun sadəcə demir, danışmır, o dünyaya hay-haray salır, hayqırır, gur, coşqun səsi ilə dağları, çayları, səmanı lərzəyə gətirir. 25 il əvvəl ilk görüşümüzdə 55 yaşında da elə idi, bu gün 80 yaşında da belədir, BİZİM RAMİZ DUYĞUN!



*Mahir CAVADLI,*
*şair-jurnalist,*
*Azərbaycan Yazıçılar Birliyinin üzvü*